# Gözün aydın, Qarabağ!

**Çox böyük tarix lazımdır ki, bir az ədəbiyyat alınsın və istənilən xalqın ədəbiyyatının inkişafı onun tarixi yüksəlişi ilə qırılmaz tellərlə bağlıdır: farslar üzərində qələbədən sonra çiçəklənən antik yunan dramaturgiyası, ispan donanmasının məğlubiyyəti və ingilislərin dənizdə hökmranlığı ələ almasından sonra meydana çıxan Şekspir yaradıcılığı, Napoleon üzərindəki tarixi qələbə ilə önəmli dərəcədə bağlı olan XIX yüzil rus ədəbiyyatı, faşizm üzərində zəfər əzmindən doğulan antifaşist ədəbiyyat bu fikri təsdiq edən konkret faktların ilk yada düşən örnəkləridir. Altmışıncı illərdən sonra yaranan Azərbaycan modern ədəbiyyatı da İkinci Cahan savaşındakı tarixi qələbədən doğulmuşdu.**



Ədəbiyyatımız tarixində eyni görəvi təkcə ictimai-siyasi deyil, bədii düşüncəmizdə də yeni səhifə açan Qarabağ savaşı da yerinə yetirdi. Birinci Qarabağ savaşı ədəbiyyatımıza, təbiidir ki, daha çox məğlubiyyət acısı və nakam talelərdən, yurd nisgili və qələbə həsrətindən doğan qəm-kədər notları gətirdi. Lakin Allahın ədaləti, dövlətimizin qüdrəti, ordumuzun rəşadəti, xalqımızın vəhdəti sayəsində qələbə qazanacağımıza sarsılmaz inam da bu əsərlərdən qırmızı xətlə keçir, onların başlıca ideya-bədii özəlliyi kimi zahir olurdu. Sabir Əhmədlinin "Ömür urası" romanı, Elçinin "Baş" romanı, "Bayraqdar" povesti, "Qarabağ şikəstəsi", "Sarı gəlin" hekayələri, Mövlud Süleymanlının "Erməni adındakı hərflər", Aqil Abbasın "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", "Dolu", Çingiz Abdullayevin "Əclafların qanunu", Nüşabə Məmmədlinin "Zəngulə", Səxavət Talıblının "Adəmin övladları", Şəmil Sadiq və Müşfiq Xanın "Ümidlərin İzi ilə", Elxan Elatlının "Cəhənnəmdən gələn səs", Etibar Muradxanlının "Siz mühasirədəsiniz, leytenant", "Tələbə taqımı" romanları, Elçin Hüseynbəylinin "Əsirlər" povesti, Yaşar Bünyadın "Atamın ayaqları", Rəşid Bərgüşadın "Namus dağı" hekayələri və digər çoxsaylı əsərlər bədii nəsrin, V.Babanlının "Ana intiqamı", N.Hacızadənin "Qisas qiyamətə qalmaz", R.Novruzun "Hələ sevirəm deməmişdilər" pyesləri isə dramaturgiyanın zamanın qarşıya çıxardığı Qarabağ probleminə bədii cavab kimi yarandı. A.Cabbarlı, Z.Məhərrəmli, S.Müslümqızı, V.Məhərrəmli, B.Məmmədov, H.Qoca, C.Kərimov, S.Eloğlu, N.Qənbər, Y.Ababsov, S.Altaylı, Ə.Qasımov və bir çox başqalarının çoxsaylı yazıları olaylara çevik publisist münasibətin əksi kimi yarandı.

Olaylara anında münasibət publisitika ilə yanaşı, poeziyada da özünün çoxsaylı ifadəsini tapdı. Şairlərimiz S.Vurğunun diliylə desək, "qələmi süngüyə" çevirdilər. M.Dilbazinin "Bu belə hardan gəldi", B. Vahabzadənin "Şəhidlər", N.Günün "Xocalı simfoniyası", Ə.Salahzadənin "Xocalı xəcilləri", Z.Yaqubun "O qızın göz yaşları", Ə.Quluzadənin "Şəhid şəhər" poemaları, Məmməd Aslanın "Ağla qərənfil, ağla" şeiri məhz bu ovqatın səciyyəvi bədii ifadəsi kimi meydana çıxdı. Qabilin o illərin ümummilli istək, ümumxlaq arzusunun bədii əks-sədası kimi meydana çıxan "Ümid sənədir ancaq, Azərbaycan əsgəri" şeirində dediyi kimi,

*Ali qonaqlar gəlir dünyanın hər yerindən,*
*Ürək yanır, göz dolur şəhid qəbirlərindən,*
*Düşünüb-daşınıram özlüyümdə dərindən,*
*İntiqam ala bilməz, qana qan ola bilməz,*
*Məzarları bəzəyən ehtiram çiçəkləri,*
*Ümid sənədir ancaq, Azərbaycan əsgəri!*

"Şəhid zirvəsi" poemasınn müəllifi Nəzakət Məmmədli müsahibələrindən birində təkcə özünün deyil, ümumən şair-yazıçılarımızın ö dönəm arzu və istəkləri, qələbə həsrətini belə ifadə edirdi: "Kaş ki, qələbəni görəydik. Bundan sonra yaranan ədəbiyyat qələbə ruhlu olaydı. Bizdən sonra gələn nəsil bu ağrıacını yaşamayaydı".

Şairin, onun simasında bütün yazıçışairlərimiz və xalqımızın bu qutsal istəyi artıq həyata keçib. Bu gün biz Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin çevik taktika və uzaqgörən strastegiyası, Azərbaycan Ordusunun ağlasığmaz rəşadəti, qardaş və dost ölkələrin dəstəyi və Allahın ədalətiylə düşmən ordusunu darmadağın edərək, "Qarabağ Azərbaycandır!" nidasını həyata keçirmişik! Otuz ildən bəri davam edən Qarabağ savaşında öz əsərləri ilə ordumuzu qələbəyə səsləyən, xalqımıza mənəvi dəstək duran şair-yazıçılarımız da bu prosesdən, təbiidir ki, kənarda qala bilməzdi və qalmadı. Qələbənin doğurduğu sevinc və qürur hissinin böyüklüyü özünün ən parlaq və monumental ifadəsini çadaş vətəndaşlıq şeirimizin bayraqdarı Ramiz Qusarçaylının dörd ilə tamamladığı, Azərbaycan tarixini ən əski çağlardan ta qələbəmizə qədər özündə əks etdirən "Vətən" epopeyasında tapdı:

*Güman keçməz dağları,*
*Aşa-aşa qayıtdıq,*
*Yumruq kimi birləşib*
*Coşa-coşa qayıtdıq,*
*Biz Kəlbəcər-Kəlbəcər*
*Şuşa-Şuşa qayıtdıq,*
*Başın uca, üzün ağ,*
*Gözün aydın, Qarabağ!*

Qarabağ və zəfər mövzusunda ən təsirli poeziya örnəklərini yaradanlar sırasında birbaşa döyüşlərdə olan, qılınıc və qələmin birliyini özlərində canlı surətdə təcəssüm etdirən gənclərin – Vüsal Hətəmov, Emin Piri, Həsən Kür, Eyvaz Əyyub, Səbuhi Qurbanov, Oğuz Alparslan, Nicat Fərman, Tamerlan Əsədov adlarını özəl vurğulamağa ehtiyac var. Tanınmış publisist Fazil Rəhmanzadənin "Qarabağ – Azərbaycandır!" kitabı qələbəmizi publisistik, Arzu Əsədin Respublika Prezidentinin qalib sərkərdə, qadir Ali Baş Komandan obrazını canlandıran, dərin vətəndaşlıq duyğusu və poetik ilhamın məhsulu olan "Və nida!" kitabı isə bədii-publisistik üslubda işıqlandırdı. Şəhidlik mövzusunda çoxsaylı kitablara imza atan Gülemail Muradın "Zəfərnamə" şeirlər silsiləsi, Elşad Baratın şəhidlərin xatirəsinə həsr olunmuş "Ölümsüzlər" şeir kitabı qələbədən sonrakı dönəmdə müharibə mövzusunda yazılan səciyyəvi əsərlər kimi meydana çıxdı. Şairlərimizdən F.Məmmnədli, Y.Nəğməkar, İ.Qəhrəman, Q.Nəcəfzadə, R.Duyğun, V.Əziz, Z.Xəlil, Q.Ağsəs, M.Nağıqızı, A.Nəzər, Ş,Horovlu, A.Qoşqar, B.Vüsal, M.Ələklbərli, R.Yusifoğlu, A.Yadigar, S.Hüseynoğlu, D.Sevgin, S.Sahibli, N.Nadir, G. Göyyurd, İ.Aytel, E.Uğur, E.Yurdoğlu və digərlərinin şeirləində zəfər notları səsləndi.



Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə tərtib olunan "Qarabağ dastanı" ikicildliyinin birinci cildi qələbəyə qədərki, ikinci cildi isə qələbədən sonrakı publisitik və bədii yazıları özündə cəmlədi. Zəfər duyğularını əks etdirən çoxsaylı poeziya antolologiyaları üzə çıxdı ki, bunların sırasında "Zəfər duyğuları" poeziya antologiyasını vurğulamaq olar.

Tənqidçi–ədəbiyyatşünas alimlərimizdən İ.Həbibbəyli, N.Cəfərov, T.Əlişanoğlu, A.Turan, E.Akimova və başqaları tarixi qələbəmizə töhfələrini sözügedən mövzuda yazılan əsərlərə dair çoxsaylı araşadırmaları ilə verdilər.

Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Yazıçılarının son qurultayına ünvanladığı təbrik məktubunda deyir: "xalqımızın qəlbində azadlıq duyğularının güclənməsi, insanlarımızın ruhuna mübarizə əzminin aşılanması və müstəqilliyimizin mənəvi zəmininin möhkəmlənməsi yolunda şair və yazıçılarımız xüsusi fədakarlıq göstərmişlər. Əminik ki, yazıçılarımız çoxəsrlik ənənədən gələn bu fədakarlığı bundan sonra da davam etdirəcək, aydın vətəndsaşlıq mövqeyi və həqiqi ilhamdan doğulan, Azərbaycan həqiqətlərini istər özümüz, isətərsə də dünyaya daha dərindən çatdıracaq kitablar yaranacaq.

**Əsəd CAHANGİR,**
**tənqidçi, ədəbiyyatşünas**

Xalq qəzeti.- 2022.- 6 noyabr.- S.5.